**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yarımillik idarəetmə hesabatı**

1.1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi**: Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu, qısaldılmış adı İKZF, qeyri-kommersiya hüquqi şəxsinin vergi uçotu haqqında şəhadətnamənin nömrəsi (VÖEN) – 1403502281, qeyri-kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin qeydiyyat nömrəsi - 1118-QK8-0060, qeydiyyata alındığı tarix 19 fevral 2018-ci ildir.

1.2. **Emitentin hüquqi ünvanı və olduğu yer:** Bakı şəhəri, Bülbül prospekti 40, AZ 1014

1.3. **Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**

Emitent dövlət təsisatı və hüquqi şəxs qismində "Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 sentyabr tarixli 299 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu kimi yaradılmış və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli Fərmanına uyğun olaraq səhmləri dövlətə məxsus “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti formasında yenidən təşkil olunmuşdur. “Azərbaycan İpoteka Fondu” ASC 18 avqust 2016-cı il tarixində kommersiya hüquqi şəxs kimi dövlət qeydiyyatından keçmişdir.

Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2017-ci il tarixli 1760 nömrəli Fərmanının 1-ci hissəsinə müvafiq olaraq, “Azərbaycan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyətinin və “Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu” Açıq Səhmdar Cəmiyyətinin birləşmə formasında yenidən təşkili yolu ilə “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu” qeyri-kommersiya hüquqi şəxsi yaradılmış və həmin Fərmanın 2-ci bəndi ilə Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi təsdiq edilmişdir. Emitent 19 fevral 2018-ci il tarixində 1118-QK8-0060 nömrəsi ilə Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində qeydiyyata alınmışdır.

1.4. **Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:** mövcud deyil

1.5. **Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:** mövcud deyil

1.6. **Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:** mövcud deyil

1.7. **Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:** Emitent Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiqlənmiş Nizamnaməsinə əsasən aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərir:

- ipoteka, o cümlədən güzəştli ipoteka kreditləşməsinin həyata keçirilməsi;
- ipoteka kreditləri üzrə təminatlar, sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə, habelə manatla emissiya etdikləri istiqrazlar üzrə öhdəliklərinə təminatların verilməsi;
- yaşayış sahələrinin alınması və satmaq öhdəliyi ilə kirayəyə verilməsi;
- sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə hesablanmış faizlərin bir hissəsinə dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada subsidiyaların verilməsi;
- təminat verdiyi öhdəliklər üzrə sahibkarlıq subyektlərində monitorinqlərin aparılmasının təmin edilməsi;
- fəaliyyətinin təmin edilməsi məqsədilə istiqrazların emissiyası, həmçinin ipoteka kreditləşməsi sahəsində likvidliyin təmin olunması, Fondun fəaliyyətinin inkişaf etdirilməsi, səmərəliliyinin və etibarlılığının yüksəldilməsi üçün digər formada investisiyaların cəlb olunması üzrə fəaliyyətin həyata keçirilməsi və digər.

1.8. **Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:** mövcud deyil

1.9. **Emitentin təklif etdiyi məhsullar və xidmətlər:** Emitent Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiqlənmiş Nizamnaməsinə əsasən aşağıdakı məhsul və xidmətləri təklif edir:

- ipoteka, o cümlədən güzəştli ipoteka kreditləşməsini həyata keçirir;
- ipoteka kreditləşməsi məsələləri üzrə məsləhət, informasiya xidmətləri və digər xidmətlər, habelə ipoteka kreditlərinin verilməsində iştirak edən banklar, sığortaçılar və qiymətləndiricilər üçün tədris proqramları həyata keçirir;
- yaşayış sahələrini alır və satmaq öhdəliyi ilə kirayəyə verir;
- ipoteka kreditləri üzrə təminatlar, sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə, habelə manatla emissiya etdikləri istiqrazlar üzrə öhdəliklərinə təminatlar verir;
- sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə hesablanmış faizlərin bir hissəsinə dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada subsidiyalar verir;
- “Elektron ipoteka və kredit zəmanət” sistemini təşkil edir və onun fəaliyyətini təmin edir;
- istiqrazlar emissiya edir, həmçinin ipoteka kreditləşməsi sahəsində likvidliyin təmin olunması, Emitentin fəaliyyətinin inkişaf etdirilməsi, səmərəliliyinin və

etibarlılığının yüksəldilməsi üçün digər formada investisiyaların cəlb olunması üzrə fəaliyyəti həyata keçirir;

– sahibkarlara borcların idarə edilməsi, risklərin qiymətləndirilməsi və idarə olunması sahəsində məsləhət xidmətləri göstərir.

**1.10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası (müddətin sonuna):**

| **2024-cü il** | |
|---|---|
| **I rüb** | **II rüb** |
| 122 | 126 |

**1.11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

Emitentin Nizamnaməsinə əsasən, Emitentin idarəetmə orqanları Himayəçilik Şurası və İdarə Heyətindən ibarətdir.

**Emitentin Himayəçilik Şurası barədə məlumat:**

Himayəçilik Şurasının üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Azərbaycan Respublikasi Prezidentinin 12 noyabr 2022-ci il tarixli 3579 nömrəli Sərəncamı ilə Himayəçilik Şurasının aşağıdakı tərkibi təsdiq edilmişdir:

- Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini;
- Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini;
- Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini;
- Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini;
- Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi siyasət məsələləri sektorunun müdiri.

**Emitentin İdarə Heyəti barədə məlumat:**

İdarə Heyətinin üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Fondun İdarə Heyəti aşağıdakı kimi təsdiq edilib:

- Fəxri Kazımov Xanhüseyn oğlu - İdarə Heyətinin sədri;
- Ramil Tahirov Şakir oğlu - İdarə Heyəti sədrinin müavini.

**1.12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı:** mövcud deyil

**1.13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:** Emitentin nizamnamə kapitalı dövlətə məxsusdur.

**1.14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):** - mövcud deyil

**1.15. emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: Təşkilati strukturu qeyri-kommersiya hüquqi şəxs olan Fondun səhmləri mövcud deyil.**

**1.15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvan):** mövcud deyil

**1.15.2. ümumi yığıncaqda qəbul edilmiş qərarlar:** mövcud deyil

**1.16. emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:** mövcud deyil

**1.16.1. əqdin məbləği:** mövcud deyil

**1.16.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi:** mövcud deyil

**1.17. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:** mövcud deyil

**1.17.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği:** mövcud deyil

**1.17.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi:** mövcud deyil

**1.18. hesabatın açıqlanma mənbəyi haqqında məlumat:** Emitentin internet səhifəsi www.mcgf.gov.az, Azərbaycan Respublikası Mərkəzi Bankının internet səhifəsi www.cbar.az

**AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT, 30 İYUN 2024-CÜ İL TARİXİNƏ**

| **AKTİVLƏR** | **30 iyun 2024** | **30 iyun 2023** |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 45,715,347 | 25,477,367 |
| Banklarda yerləşdirilmiş depozitlər | 4,629,603 | 10,314,201 |
| Amortizasiya olunmuş dəyərdə borc alətləri | 75,759,462 | 71,230,219 |
| İpoteka krediti | 2,167,457,521 | 1,865,921,857 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 15,504,746 | 17,208,351 |
| Aktivdən istifadə hüququ | - | 35,966 |
| Maliyyə icarəsi üzrə alınacaq vəsaitlər | 460,127,018 | 361,056,148 |
| Satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu | 316,494,765 | 189,646,411 |
| Digər aktivlər | 1,563,270 | 1,258,007 |
| **CƏMİ AKTİVLƏR** | **3,087,251,731** | **2,542,148,527** |
| **ÖHDƏLİKLƏR** | | |
| Buraxılmış qiymətli kağızlar | 1,880,656,153 | 1,453,203,071 |
| Faiz subsidiyaları üzrə nəzərdə tutulmuş vəsait | 16,887,886 | 12,315,741 |
| Təxirə salınmış gəlirlər | 9,985,214 | 10,426,862 |
| Gələcək dövrün gəlirləri | 1,524,327 | 1,220,285 |
| İcarə öhdəlikləri | - | 45,846 |
| Digər öhdəliklər | 5,989,617 | 3,592,889 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1,915,043,197** | **1,480,804,694** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 980,700,000 | 893,000,000 |
| Kapital ehtiyatları | 136,148,451 | 112,915,728 |
| Dövlət büdcəsindən daxil olmuş vəsait | 43,850,000 | 43,850,000 |
| Cari ilin mənfəəti | 11,510,082 | 11,578,105 |
| **CƏMİ KAPİTAL** | **1,172,208,534** | **1,061,343,833** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **3,087,251,731** | **2,542,148,527** |

## AZƏRBAYCAN RESPUBLİKASININ İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU
## MƏCMU GƏLİR HAQQINDA HESABAT, 30 IYUN 2024-cü il TARİXİNƏ

| | 30 iyun 2024 | 30 iyun 2023 |
|---|---|---|
| Faiz gəlirləri | 44,705,462 | 37,816,630 |
| Faiz xərcləri | (26,909,370) | (20,804,524) |
| **Xalis faiz gəlirləri** | **17,796,092** | **17,012,106** |
| Gözlənilən kredit zərəri | (739,485) | (474,561) |
| Haqq və komissiya gəlirləri | 496,022 | 1,075,331 |
| Haqq və komissiya xərcləri | (678,751) | (587,667) |
| Digər gəlirlər | 774,263 | 220,824 |
| **Əməliyyat gəlirləri** | **17,648,142** | **17,246,033** |
| İnsan resursları üzrə xərclər | (3,739,307) | (3,000,790) |
| İnzibati və digər xərclər | (2,398,753) | (2,667,138) |
| **Vergidən əvvəlki mənfəət** | **11,510,082** | **11,578,105** |
| **İl üzrə təsdiq olunmamış mənfəət və cəmi məcmu gəlir** | **11,510,082** | **11,578,105** |

| | 30 iyun 2024 | 30 iyun 2023 |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Alınmış faizlər | 44,174,534 | 34,960,334 |
| Ödənilmiş faizlər | (24,904,163) | (20,595,032) |
| Alınmış haqq və komissiyalar | 687,580 | 708,305 |
| Ödənilmiş haqq və komissiyalar | (1,216,209) | (662,644) |
| Digər gəlirlər | 538,373 | 420,983 |
| İnsan resursları üzrə xərclərin ödənişi | (4,041,528) | (3,186,906) |
| İnzibati və digər xərclər üzrə ödənişlər | (1,247,429) | (1,295,288) |
| **Əməliyyat aktivlərində (artım)/azalma** | | |
| Banklarda yerləşdirilmiş depozitlər | - | 21,000,000 |
| İpoteka kreditləri | (161,716,093) | (158,335,065) |
| Maliyyə icarəsi üzrə alınmış vəsaitlər maddəsi üzrə dəyişikliklər | (22,848,614) | (55,224,640) |
| Satmaq öhdəliyi ilə kirayə üçün yaşayış sahələri fondu maddəsində artım | (80,609,097) | 22,572,594 |
| Digər aktivlər | 44,780 | 5,759 |
| **Əməliyyat öhdəliklərində (azalma)/artım** | | |
| Faiz subsidiyaları üzrə dövlət büdcəsi ilə hesablaşmalar | 2,071,268 | 2,425,977 |
| Digər öhdəliklər | 2,574,056 | 84,007 |
| **Əməliyyat fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | **(246,492,542)** | **(157,121,616)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Amortizasiya olunmuş dəyərdə borc alətlərindən geri alınması | 33,727,626 | - |
| Amortizasiya olumuş dəyərdə borc alətlərinin satın alınması | (30,000,038) | 13,618,158 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | (61,638) | (46,947) |
| **İnvestisiya fəaliyyəti üzrə (istifadə edilən)/daxil olan xalis pul vəsaitləri** | **3,665,950** | **13,571,211** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Dövlət büdcəsindən ayırmalar | 43,850,000 | 43,850,000 |
| Borc qiymətli kağızların buraxılmasından daxilolma | 300,160,831 | 182,209,500 |
| Ödənilmiş borc qiymətli kağızları | (58,490,775) | (98,230,122) |
| Borc qiymətli kağızlarının vaxtından qabaq geri alışı | (9,870,900) | - |
| Ödənilmiş icarə öhdəlikləri | - | (90,894) |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **275,649,156** | **127,738,484** |
| **PUL VƏSAİTLƏRİNDƏ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM** | **32,822,564** | **(15,811,921)** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ: *ilin əvvəlinə* | 12,892,783 | 41,289,287 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ: *ilin sonuna*** | **45,715,347** | **25,477,366** |